

*“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”.*

**Heydər Əliyev**


# XIZI

Qəzet 1990-cı ildən çıxır.
№ 9-10 (199-200) 323-324
Sentyabr-oktyabr 2024-cü il

**Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti**


# Antiterror əməliyyatı tariximizə qızıl hərflərlə yazıldı

**2020-ci il sentyabrın 27-sində başlayan 44 günlük Vətən müharibəsi nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir. Hərbi əməliyyatlar 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanan üçtərəfli bəyanatla başa çatdı.**



Müharibədən sonra Azərbaycan dəfələrlə Ermənistana davamlı sülh üçün çağırışlar etsə də Ermənistan tərəfi hər dəfə danışıqlardan boyun qaçırır, bununla da kifayətlənməyərək suveren ərazilərimizdə silahlı təxribatlarını davam etdirirdi. 2021-ci ildə Azərbaycan və Ermənistanda sərhəd delimitasiyası üzrə işçi qruplar yaradılmışdır. Danışıqlar böhran və bölgədə ara-sıra baş verən silahlı toqquşmalarla müşahidə olundu. 2021-ci ilin noyabrında sərhəddə birinci silahlı toqquşmalar baş vermişdir. Müharibədən sonra ən qanlı toqquşma 2022-ci ilin sentyabrında sərhəddə baş vermişdir. 2023-cü ilin martında Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri Şuşa istiqamətində təxribatlar törətmiş, aprel və may ayında isə şərti dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun mövqeləri atəşə tutulmuşdur.

Bundan əlavə, həmin zaman Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazilərindəki faydalı qazıntı yataqlarının qeyri-qanuni şəkildə istismar olunması, bu zaman ekoloji normalara əməl edilməməsi və təbii sərvətlərin Ermənistana daşınması, Azərbaycan ictimaiyyətinin haqlı narazılığına səbəb olmuşdur. Separatçıların Qarabağda qeyri - qanuni fəaliyyətlərinə qarşı Azərbaycanın bir-sıra vətəndaş cəmiyyəti nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda bir müddət etiraz aksiyası keçirilmişdir.

2023-cü il aprelin 23-də Azərbaycan Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən 22 aprel tarixində birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın – Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına cavab olaraq aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın–Xankəndi yolunun başlanğıcında "Laçın" Nəzarət-Buraxılış Məntəqəsinin qurulduğunu bildirmişdir.

Həmin zaman Azərbaycanın Qarabağ bölgəsində 10 mindən artıq Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri mövcud idi. Halbuki, üçtərəfli bəyanata əsasən, Qarabağ ərazisindəki erməni yaraqlıları 3 il əvvəl tərksilah edilməli idilər. Azərbaycan işğala məruz qalan tərəf olsa da Qarabağda baş verən gərginliyin aradan qaldırılması, azərbaycanlılarla ermənilərin birgə yaşayışını təmin edəcək reinteqrasiya prosesinin normal davam etməsi və məsələnin ikitərəfli danışıqlar yolu ilə həllini tapması üçün 3 il müddətində əlindən gələni etdi. Təəssüf ki, Azərbaycanın humanist çağırışlarının əvəzində erməni silahlı qüvvələri sayını artırmaqla, yeni silahlar alıb, təxribatlar törətməklə məşğul idilər. Vəziyyət o həddə çatmışdı ki, Qarabağda separatçılar müstəqillik iddialarından əl çəkmir, özlərinin oyuncaq “prezident”lərini seçir, qondarma “parlament”ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər. Son bir neçə ayda Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin fəallaşması müşahidə olunurdu. Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olmuşdu.

Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətdi. Erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid oldu və yaralandı. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralandı. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak oldu. Qeyri-qanuni erməni silahlı birləşmələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edildi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı.

Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Razılaşmaya əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı və tam şəkildə tərk-silah olunmalıdır.

Dəfələrlə Azərbaycan nümayəndələri ilə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bir günlük antiterror tədbirlərindən sonra Yevlax şəhərində görüşməyə məcbur oldular. Görüşdə Separatçı rejimin ləğvi, Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiya məsələləri müzakirə edilib. Eyni zamanda, Qarabağın erməni əhalisinə Azərbaycanın təklif etdiyi reinteqrasiya şərtləri ilə tanış olmaq, regionda qalıb-qalmamaq barədə müstəqil qərar vermək imkanları yaradılmışdır.

Sentyabrın 28-də Qarabağın separatçı rejimin rəhbəri Samvel Şahramanyan qondarma rejimin ləğvi ilə bağlı sənəd imzaladı.

Beləliklə, 24 saatdan az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşən Ermənistan ordusu təm şəkildə tərksilah edilərək, ölkəni tərk etdi. Qarabağda qeyri-qanuni xunta rejimi ləğv edildi, separatçıların əsas rəhbərləri həbs edildi və Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi.

Azərbaycanın Zəfər tarixi Xankəndi, Xocalı, Ağdərə, Xocavənd, Əsgəranda üçrəngli bayrağımızın yüksəldilməsi, ərazi bütövlüyümüzün tam bərpası ilə yekunlaşdı.

2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan təntənəli hərbi paradın keçirilməsi Qələbəmizin möhtəşəm simvoluna çevrildi.

**“XIZI”**



**"Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm."**

**Heydər Əliyev,**
**Ümummilli Lider**

# Müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən biri

**Azərbaycanın dövlətçilik tarixində misilsiz xidmətlər göstərmiş, ideyaları, zəkası, biliyi, idarəçilik təcrübəsi ilə bu günümüzə, sabahımıza bələdçilik edən ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyətində 1990-1993-cü illər mühüm yer tutur. Həmin dövr Ulu Öndər Heydər Əliyevin siyasi irsinin Naxçıvan dövrü kimi adlandırıla bilər. Məhz həmin illər onun böyük siyasətə, hakimiyyətə qayıdış dövrü oldu.**

Naxçıvan parlamentinin yeni tərkibdə 1990-cı il noyabrın 17-də keçirilən ilk sessiyası deputatların istəyi və böyük təkidi nəticəsində Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə işinə başlamışdı. Milli dövlətçiliyə yeni nəfəs vermiş Naxçıvan parlamentinin ilk sessiyasında gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar, ümumilikdə, Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanmışdı.

Ulu Öndərin siyasi fəaliyyətinin əsasında milli dövlətçilik ənənələrinin qorunmasına xidmət durub. Fenomen şəxsiyyət Naxçıvanda milli qurtuluşun, milli dövlətçilik quruculuğunun təməllərini özünün zəngin təcrübəsinə və Naxçıvanda daim yaşadılan qədim Azərbaycan dövlətçilik ənənələrinə əsaslanaraq atıb.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ulu Öndərin Ali Məclisin sədri seçilməsi Azərbaycanın müstəqillik yolunun əsasını qoyub.

Qarabağ müharibəsinin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı, sosial-iqtisadi durumun kəskin olduğu şəraitdə Ali Məclisin sədri seçilən Ulu Öndər Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində Naxçıvanda sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail oldu.

Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin parlaq səhifələrini təşkil edir.Görkəmli dövlət xadiminin qədim diyardan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilməsi böyük təcrübəyə malik olan qüdrətli siyasətçinin ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməsinə geniş imkanlar açıb.

Naxçıvan Muxtar Respublikasının xilası və dirçəlişi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri misilsizdir.

Ulu Öndər Heydər Əliyevin həm sovetlər birliyi dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb.

Yeni ictimai-siyasi münasibətlərin formalaşdırılması dövründə dövlətçilik ənənələrinin qorunması məsələsi də bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır.

Blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası bir çox çətinliklər ilə üz-üzə qalmışdır. Naxçıvanın sosial-iqtisadi durumunun bərbadlığı, hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Muxtar Respublikanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi. Yalnız 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilən Ümummilli Lider Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində muxtar respublikada sabitlik təmin edildi və Naxçıvanda sosial-iqtisadi vəziyyət normallaşdırıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il noyabrın 17-də keçirilən sessiyasında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı olaraq təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır. 1991-ci il fevral ayının 5-də həmin vəsatətə baxılmış və Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu yenidən Dövlət bayrağı elan etmişdir.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi olduqca yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, Ulu Öndər Heydər Əliyev bunu nümayiş etdirdi. Eyni zamanda, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan MR-də sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və tərəqqinin əldə olunması üçün əhəmiyyətli tədbirlər görüldü. Aqrar islahatlar reallaşdırıldı, infrastrukturun inkişafı istiqamətində xüsusi işlər həyata keçirildi.

Blokada şəraitində olan Muxtar Respublikanın inkişafı və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələrin formalaşdırılması, eləcə də inkişafı yönündə mühüm addımlar atıldı.Türkiyə və İranla qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan ilk rəsmi təmaslar təşkil olundu. 24 mart 1992-ci il tarixində Ankarada Naxçıvan MR-lə Türkiyə Cümhuriyyəti arasında işbirliyi protokolunun imzalanması bu baxımdan müstəsna əhəmiyyətə malikdir.

Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə Ulu Öndər Heydər Əliyev gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlarla Muxtar Respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu.

Ümummilli Liderin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Muxtar Respublikanın dövlət quruculuğu, müdafiə və hərbi quruculuq məsələləri, hakimiyyət və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, iqtisadi və siyasi böhranın aradan qaldırılması, iqtisadi islahatların keçirilməsi, xarici iqtisadi əlaqələrin yaradılması, həmsərhəd xarici dövlətlərlə - Türkiyə və İranla mehriban qonşuluq münasibətlərinin qurulması və kütləvi tədbirlərə aid məsələlər müzakirə edildi, müvafiq qərarlar qəbul olundu.

Ulu Öndər Heydər Əliyevin "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü"nün təsis olunması kimi təşəbbüsünün tarixi əhəmiyyəti var. Ulu Öndərin Ali Məclisin sədri vəzifəsində işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında - Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi və 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü"haqqında" Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir.

**"XIZI"**

*Şəhidlər ölməz, Vətən bölünməz!*

# 27 sentyabr Anım günüdür

*Xızı rayonunda şəhidlərin əziz xatirəsi böyük ehtiramla yad edilib*










**2020-ci il sentyabrın 27-dən işğalçı Ermənistanın növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz torpaqlarımızın düşməndən azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı.**

Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə şücaət göstərən hərbçilərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə Azərbaycan xalqı bir yumruqtək birləşərək işğalçılara sarsıdıcı zərbələr endirdi. Vətən müharibəsində Müzəffər Ordumuzun üç minə yaxın hərbi qulluqçusu şəhid oldu, min nəfərdən artıq əsgər və zabitimiz yaralandı, yüz nəfərdən çox hərbçimiz itkin düşdü, düşmən təxribatları nəticəsində yüzlərlə mülki insanlarımız hədəfə alındı və onlara qarşı müharibə cinayətləri törədildi. Nəhayət, işğal altında olan torpaqlarımız şəhidlərimizin, qazilərimizin qanı və canı bahasına azad olundu.

Azərbaycan xalqı həmişə qəhrəman övladlarının rəşadətini yüksək dəyərləndirir, şəhidlərimizin ölməz ruhuna ehtiram göstərir, işıqlı xatirəsini əziz tutur.

Vətən müharibəsində igidliklə savaşmış, üçrəngli bayrağımızı işğaldan azad olunan torpaqlarımızda vüqarla dalğalandırmış, respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda öz şirin canlarını belə əsirgəməmiş bütün şəhidlərimizə ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, hər il sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd olunur. Respublikamızın bütün bölgələrində olduğu kimi, Xızı rayonunda da 27 Sentyabr - Anım Günü ilə əlaqədar ümumrayon anım mərasimi keçirilib. Şəhidlərin əziz xatirəsi böyük ehtiramla yad edilib.

Sentyabrın 27-də Xızı şəhərində Heydər Əliyev Mərkəzinin qarşısından "Şəhidlər xiyabanı" memorial abidə kompleksinədək yürüş keçirilib. Yürüşdə Xızı rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında Xızı RİHBA-nın rəsmiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, eləcə də rayonda fəaliyyət göstərən idarə, təşkilat, müəssisələrin rəhbərləri və işçiləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri, sakinlər iştirak ediblər.

Yürüş iştirakçıları abidə kompleksinin önünə tər gül dəstələri düzərək şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad ediblər, dualar oxuyublar.

**"XIZI",**
**27 sentyabr 2024-cü il**

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçmuş şəhidlərimizin ölməz xatirəsi Xızı rayonunda sentyabrın 27-si saat 12:00-da bir dəqiqəlik sükutla yad edilb.

**"XIZI",**
**27 sentyabr 2024-cü il**

# 27 Sentyabr - Anım Gününə həsr olunmuş ağacəkmə aksiyası keçirilmişdir







Xızı şəhərində "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində 27 Sentyabr - Anım Gününə həsr olunmuş ağacəkmə aksiyası keçirilmişdir. Sentyabrın 25-də şəhərin Heydər Əliyev prospektində təşkil olunmuş aksiyada Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında RİHBA-nın işçiləri, rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak etmişlər.

130 nəfərin iştirakı qeydə alınan ağacəkmə aksiyasında 300 ədəd həmişəyaşıl tuya və şərv ağacları əkilmiş, yeni basdırılmış tinglərə aqrotexniki qulluq göstərilərək suvarılmışdır.

**"XIZI", R.M.**
**25 sentyabr 2024-cü il**

*Şəhidlər ölməz, Vətən bölünməz!*

# Xızıda şəhid ailələri ziyarət olunub

*"Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq".*

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

*"Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq. Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq".*

*Mehriban xanım Əliyeva,*
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*





**Sentyabrın 27-də Ermənistanın törətdiyi hərbi təxribat Azərbaycana öz torpaqlarının işğaldan azad edilməsi üçün müharibədən başqa yol qoymadı.**

İlk gündən düşmənin döyüş meydanında məğlubiyyətə uğradılması ilə torpaqlarımızın azad olunması prosesi başlanıldı. Ordumuz keçirdiyi əks hərbi əməliyyatların ilk günündən olduqca mükəmməl hücumları ilə hansı gücə malik olduğunu göstərdi. 44 günlük müharibə Azərbaycan üçün şərəf və milli ləyaqət məsələsi idi.

Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə qəhrəmanlıqla döyüşən ordumuz və öz rəhbəri ətrafında sıx birləşən, həmrəylik nümayiş etdirən xalqımız bu müharibədən şərəflə və ləyaqətlə çıxdı. Şəhidlərimizin, qazilərimizin qanı, canı bahasına torpaqlarımız işğaldan azad edildi.





Şəhidlər bizim qürur mənbəyimizdir. İllər keçsə də xalqımız hər zaman böyük minnətdarlıq, ehtiram duyğusu ilə şəhidlərini yad edir. Ölüm qorxusunun nə olduğunu bilmədən, ürəklərində Vətən sevgisi ilə döyüşərək şəhid olan igid oğullarımız Azərbaycan xalqının gələcək nəsillərinin qəhrəmanlıq simvoluna çevriliblər. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçərək ali zirvəyə - şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının xatirəsini daim əziz tutmaq, ailələrini ziyarət etmək mənəvi borcumuzdur.





27 Sentyabr - Anım Günü ərəfəsində Xızı Rayon İcra Hakimiyyətinin əməkdaşları rayonun idarə, müəssisə və təşkilatlatının rəhbərləri ilə birlikdə Xızı rayonunda şəhid ailələrini ziyarət edərək onlara mənəvi dəstək nümayiş etdiriblər.

Şəhid ailələri ilə sentyabrın 23-də keçirilən görüşlərdə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Zəfərdən, əsgər və zabitlərimizin, qazilərimizin, şəhidlərimizin misli görünməmiş qəhrəmanlıqlarından geniş söhbət açılıb.

Şəhid ailələrini narahat edən məsələlər öyrənilərək, problemlərin aradan qaldırılması nəzarətə götürülüb. Ailələrin hər birinə yardım göstərilib.

**"XIZI", R.M.**
**23 sentyabr 2024-cü il**







# Baş prokuror Kamran Əliyev Xızı rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılır, onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.**

Sentyabrın 17-də Baş prokuror Kamran Əliyev Xızı rayonunda vətəndaşları qəbul edib. Xızı Rayon Prokurorluğunun inzibati binasında təşkil olunmuş qəbulda Xızı, Siyəzən, Şabran rayonlarından və digər bölgələrdən olan vətəndaşlar iştirak ediblər.

Qəbuldan əvvəl, Baş prokuror Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini böyük ehtiramla yad edib.






Qəbulda iştirak edən 15 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Baş prokuror Kamran Əliyev qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirərək onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyinin artırılmasına dair təklifləri dinləyib.

**"XIZI",**
**17 sentyabr 2024-cü il**

*Qeyd: Baş Prokurorluğun mətbuat xidmətinin məlumatlarına istinad olunub.*

# "Müstəqilliyin bərpasına gedən yol - Gözümün nuru Vətən"



**Ötən əsrin sonlarında yaranmış tarixi şərait Azərbaycana öz dövlət müstəqilliyini bərpa etmək imkanı verdi. Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında " Konstitusiya Aktının yekdilliklə qəbul olunması ilə Azərbaycan yenidən müstəqilliyinə qovuşdu.**

Müstəqilliyimizin bərpa olunması yaranmış tarixi şəraitdən əlavə, həm də Azərbaycan xalqının müstəqillik arzusu və azadlıq mübarizəsi nəticəsində mümkün oldu. Ağır sosial-iqtisadi şəraitdə və sınaqlar dövründə bərpa olunan müstəqillik qısa müddət ərzində yenidən itirilmə təhlükəsi ilə üz-üzə qaldı. Bir tərəfdən Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları və təcavüzü, digər tərəfdən daxili siyasi çəkişmələr, vətəndaş qarşıdurmaları müstəqilliyimizin məhvolma təhlükəsini daha da artırırdı. Yalnız xalqın təkidi tələbi ilə 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan öz müstəqilliyini qorumaq və inkişaf etdirmək iqtidarında oldu.

Ulu Öndər tərəfindən aparılan məqsədyönlü və uğurlu siyasət nəticəsində respublikamızda ardıcıl islahatlar həyata keçirildi, Ermənistan Azərbaycan münaqişəsində atəşkəs əldə edildi, ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərinin əsas götürülməsi nəticəsində Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası prosesinə başlandı, demokratik dəyərlər dövlət siyasətinin mahiyyətini müəyyən edən əsas meyarlardan biri kimi müəyyənləşdirildi.

Ümummilli Lider Heydər Əliyevin müdrik siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev siyasi ənənələrə uyğun olaraq, ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması, hüquqi dövlət quruculuğunun möhkəmləndirilməsi istiqamətində genişmiqyaslı islahatlar həyata keçirir. Ölkə rəhbərinin siyasi iradəsi, qətiyyəti nəticəsində güclənən Azərbaycan müstəqil dövlət kimi çiçəklənən dövrünü yaşayır.

2020-ci ildə 44 günlük Vətən müharibəsində otuz ilə yaxın erməni işğalı altında olan torpaqlarımız Müzəffər Ali Baş Komandanımızın, rəşadətli Ordumuzun, iradəli xalqımızın birliyi nəticəsində azad olundu, müstəqilliyimizin əbədiyaşarlığı təmin olundu.

***

18 Oktyabr - Dövlət Müstəqilliyinin Bərpası Günü və 44 günlük savaşda Vətənimizin ərazi bütövlüyü uğrunda gözlərini qurban vermiş qazi Kamran Baxşizadənin anadan olmasının 30 illik yubileyi münasibətilə Xızı rayonunda "Müstəqilliyin bərpasına gedən yol - Gözümün nuru Vətən" adlı tədbir keçirilib.





Xızı Rayon İcra Hakimiyyətinin, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin və Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin birgə təşkilatçılığı ilə oktyabrın 18-də Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Xızı RİHBA-nın rəsmiləri, YAP Xızı rayon təşkilatının fəalları, Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin, eləcə də rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin əməkdaşları, mədəniyyət işçiləri, müharibə veteranları, şəhid ailələri, ziyalılar, gənclər iştirak ediblər.

Əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə Xızı RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov açıb. O, ilk növbədə, tədbir iştirakçılarını 18 Oktyabr - Dövlət Müstəqilliyinin Bərpası Günü və Xızı şəhər sakini qazi Kamran Baxşizadəni 30 illik yubileyi münasibətilə təbrik edib.

Öz çıxışında dövlət müstəqilliyimizin tarixinə nəzər salan A.Hüseynov qazanılan uğurların bu günün reallıqlarında öz əksini tapmasını faktlarla şərh edib. Natiq daha sonra Azərbaycanın mərd, igid oğullarının Vətənin ərazi bütövlüyü uğrunda gedən savaşda göstərdikləri şücaətdən, rəşadətdən, şəhidlərimizin, qazilərimizin canı, qanı bahasına əldə olunan şanlı Qələbədən söhbət açıb.

Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri Səmyar Abdullayev öz çıxışında 44 günlük Vətən müharibəsində iki gözünü itirmiş Kamran Baxşizadənin şərəfli döyüş yolunun gənclərimizə örnək olduğunu vurğulayıb, qazimizi yubiley münasibətilə təbrik edib.

Çıxışlar dinlənildikdən sonra qazi Kamran Baxşizadəyə həsr olunmuş "Gözümün nuru Vətən" filminin nümayişi maraqla izlənilib.

Tədbir bədii hissə ilə davam edirilib.

**"XIZI", R.M.**
**18 oktyabr 2024-cü il**

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin noyabr ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Sitalçay kəndi | Sitalçay kənd Uşaq bağçasının binası | 01.11.2024 | 11:00 |
| 2 | | Xızı şəhəri | Xızı şəhər tam orta məktəbin binası | 15.11.2024 | 11:00 |
| 3 | | Fındığan kəndi | Fındığan kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 20.11.2024 | 11:00 |

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2024-cü ilin dekabr ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| Sıra № | Rayon | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun tarixi | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Baxşılı kəndi | Baxşılı kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 04.12.2024 | 11:00 |
| 2 | | Türkoba kəndi | Türkoba kənd tibb məntəqəsi | 11.12.2024 | 11:00 |
| 3 | | Yeni Yaşma kəndi | Yeni Yaşma kənd tam orta məktəbin binası | 18.12.2024 | 11:00 |
| 4 | | Qarabulaq kəndi | Qarabulaq kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 20.12.2024 | 11:00 |

# Xızı Rayon Prokurorluğunun 2024-cü ilin oktyabr-dekabr ayları ərzində vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair QRAFİKİ

| Sıra №-si | Vətəndaşların qəbulu keçirilən ərazi | Qəbulun keçirilmə vaxtı | Vətəndaşları qəbul edən məsul şəxs |
|---|---|---|---|
| 1. | Xızı RİHB-nın Baxşılı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 21.10.2024-cü il 11:00 - 13:00 | Xızı rayon prokuroru Xəyalə Aslanova |
| 2. | Xızı RİHB-nın Altıağac qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 25.11.2024-cü il 11:00 - 13:00 | Xızı rayon prokuroru Xəyalə Aslanova |
| 3. | Xızı RİHB-nın Xızı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 16.12.2024-cü il 11:00 - 13:00 | Xızı rayon prokuroru Xəyalə Aslanova |

# "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Xızıda ağacəkmə kompaniyası keçirilib








**Bildiyimiz kimi, ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü il respublikamızda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Sərəncamda qeyd olunan Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair beş milli prioritetlərdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib.**

Həmin prioritetə uyğun olaraq, Xızı rayonunda da ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması istiqamətində işlər aparılır. Belə işlərdən biri də Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli sərəncamı ilə olkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı təsdiq olunmuş "Tədbirlər Planı"na əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xızı rayonu ərazisində fəaliyyət göstərən "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" Açıq Səhmdar Cəmiyyətinin 5 saylı İdarəsinin ərazisində Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ağacəkmə kompaniyası keçirilib.

Tapşırığın icrasının təmin edilməsi məqsədilə mütəmadi olaraq, Heydər Əliyev Parkında, Xızı şəhərinin müxtəlif ərazilərində təşkil olunan ağacəkmə aksiyalarında Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin rəhbərləri və əməkdaşları iştirak ediblər.

Alınan məlumata görə, Xızı rayonunda oktyabrın 18-dən 27-dək davam edən ağacəkmə kompaniyasında ümumilikdə 10 000 ədəd müxtəlif növ ağac və kollar əkilib.

**"XIZI", R.M.**
**28 oktyabr 2024-cü il**

# "Uşaq hüquqları aylığı" çərçivəsində maarifləndirici tədbirlər keçirilib

**Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 1989-cu il noyabrın 20-də qəbul olunmuş "Uşaq hüquqları haqqında" Konvensiyanın 35-ci ildönümü ərəfəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı) hər il olduğu kimi 2024-cü ildə də ölkəmizdə "Uşaq hüquqları aylığı" elan etmişdir.**



Uşaqların müdafiəsi və inkişafının dövlətin apardığı siyasətdə mühüm yer tutduğunu nəzərə alaraq, oktyabrın 31-də Xızı Rayon İcra Hakimiyyətinin, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin, Xızı Rayon Polis Şöbəsinin və Abşeron-Xızı Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Şorabad qəsəbə və Yeni Yaşma kənd tam orta məktəblərinin 9, 10 və 11-ci sinif şagirdlərinin, o cümlədən adları çəkilən təhsil ocaqlarının pedaqoji heyətlərinin iştirakı ilə "Uşaq hüquqları aylığı çərçivəsində maarifləndirici tədbirlər keçirilmişdir.

Keçirilən tədbirlərdə uşaq hüquqları barədə geniş məruzələr dinlənilmiş, mövzu ilə bağlı müzakirələr aparılmış, uşaqları maraqlandıran suallar cavablandırılmışdır.

Məruzələrdə xüsusilə vurğulanmışdır ki, Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamı dövlətimizin beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə böyük dəstək verdiyinə bariz nümunədir. Bu ilin noyabr ayında ölkəmizin mötəbər beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini nəzərə alaraq, iqlim dəyişmələri üzrə və onun fəsadlarından təsirlənən əhali qrupu kimi uşaqların hüquqlarının müdafiəsi, onların bu istiqamətdə məlumatlandırılması baxımından müzakirələrdə iştirakı mühüm əhəmiyyətə malikdir.

**"XIZI"**
**31 oktyabr 2024-cü il**

# Uşaqlar arasında "Müşfiq ömrü" bədii qiraət müsabiqəsi keçirilib

Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"na uyğun olaraq, uşaqların vətənpərvərlik və milli mənəvi dəyərlər ruhunda tərbiyəsi istiqamətində işlərin gücləndirilməsi məqsədilə oktyabrın 25-də Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin və Abşeron-Xızı Regional Təhsil İdarəsinin iştirakı ilə görkəmli şair Mikayıl Müşfiqin Ev muzeyində "Müşfiq ömrü" adlı bədii qiraət müsabiqəsi keçirilib.




Gənclərin yaradıcılıq qabiliyyətinin inkişafı və istedadlı uşaqların üzə çıxarılması üçün böyük əhəmiyyət daşıyan müsabiqədə şairin müxtəlif şeirləri ifa olunub. Müsabiqənin qalibləri Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin diplom və medalları ilə təltif ediliblər.

**"XIZI", R.M.**
**25 oktyabr 2025-ci il**

# İdman xəbərləri




## Sərbəst güləş üzrə ustad dərsləri keçirilib




**Xızı rayonunda "İdman hamı üçün" layihəsi çərçivəsində idmanın sərbəst güləş növü üzrə ustad dərsləri keçirilib. Sentyabrın 4-də Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Giləzi qəsəbəsində Xızı UGİŞM-nin idman zalında keçirilmiş ustad dərsləri sərbəst güləş üzrə idman ustası Zülfiqar Qulamov tərəfindən aparılıb.**

Artıq ənənə halını almış ustad dərslərinin keçirilməsində məqsəd Xızı rayonunda uşaqlar, yeniyetmələr və gənclər arasında idmanın sərbəst güləş növünə marağın artırılması, idmançıların yarışlara hazırlıq səviyyəsinin yüksəldilməsi və sağlam həyat tərzinin təbliğ olunmasıdır.

"XIZI"

## Elşad Qulamlı turniri 2-ci yerdə başa vurdu

**Sumqayıt şəhərinin75 illiyinə həsr olunmuş 2007-2009-cu illər təvəllüdlü oğlanlar arasında sərbəst güləş üzrə turnir keçirilmişdir. Turnirdə Sumqayıt, Xızı, Abşeron, Xaçmaz, Siyəzən, Bakı, Gəncə, Şirvan, Lənkəran, Masallı, Cəlilabad, Şamaxı, Qazax və digər bölgələrdən olan yeniyetmə pəhləvanlar çıxış ediblər.**

Oktyabrın 27-də Sumqayıt şəhərində təşkil olunmuş turnirdə Giləzi qəsəbəsində fəaliyyət göstərən Xızı rayon UGİŞM-nin yetirməsi, 2009-cu il təvəllüdlü Elşad Qulamlı 45 kq çəki dərəcəsində 2-ci yerə layiq görülüb. Üç rəqibinə tam üstünlüklə qalib gələn yeniyetmə güləşçimiz yalnız finaldakı rəqibi ilə bacarmayıb.

Respublika miqyaslı yarışda əldə olunan bu nəticəni uğurlar siyahısına artırmaq olar. Elşad Qulamlının qazandığı bu uğurda əməkdar məşqçi Rahim Əbdürrəhimlinin də böyük zəhmət payı var.

"XIZI"



# Əkin sahəsini sığorta edərkən fermerin diqqət yetirməli olduğu 7 vacib məsələ

**Azərbaycanda fermerlərin gəlirlərini və məhsulunu qorumaq məqsədilə tətbiq olunan dövlət dəstəkli aqrar sığorta mexanizmi ildən-ilə genişlənir.**

Qarşıdan gələn payızlıq əkinlərin sığorta mövsümündə minlərlə fermer yüz minlərlə hektar sahələrdə əkin aparacaq və təsərrüfatlarını sığorta edəcəklər.

Aqrar Sığorta Fondu tərəfindən mütəmadi həyata keçirilən monitorinqlər, müraciətlərin təhlili nəticəsində həm də fermerlər tərəfindən diqqət yetirilməli məqamlar araşdırılır. Bəzi hallarda fermerlər əkin sahələrini sığorta edərkən müəyyən halları nəzərdən qaçırırlar. Bu isə sığorta ödənişlərinin təsdiqinə, məbləğinə və vaxtına ciddi təsir edir.

**1. "Sığortanın vaxtına hələ var": Müqavilənin gec bağlanması**

Aqrar sığorta qaydalarına görə, əkin sahələrini müəyyən dövrdə sığorta etmək olar. Məsələn, bu müddət payızlıq əkinlər üçün oktyabrdan dekabr ayına qədərdir.

Bəzən fermerlər əkin işləri aparsalar da əkin sahəsini sığortalamağı ləngidir, bunu yalnız ilin axırında edirlər. Nəticədə əkin sahəsi oktyabr, noyabr və dekabrda baş verən hadisələr qarşısında sığortasız olur.

Ən sərfəli üsul torpaq əkilən kimi söğorta üçün müraciət olunmasıdır. Bu zaman bitki çücərti fazasında olduğu andan sığorta təminatı qüvvəyə minir və baş verən bütün hadisələrdə fermerə dəyən zərər qarşılanır.

**2. "Sığorta müqaviləsi var, pulunu sonra ödəyərəm" : Sığorta haqqının vaxtında ödənilməməsi**

Bir çox hallarda fermer sığorta üçün müraciət edir, müstəqil ekspert əkin sahəsinə baxış keçirir, müqavilə hazırlanır, lakin söğorta haqqı ödənilmədiyinə görə müqavilə qüvvəyə minmiş sayılmır. Qaydalara əsasən, sığorta müqaviləsi yalnız sığorta haqqı ödənildikdən sonra qüvvəyə minir. Fond bir qayda olaraq, bu barədə fermerlərə məlumat verir. Lakin bəzi hallarda fermerlər sığorta müqaviləsinin hazırlanmasını onun qüvvəyə minməsi kimi qəbul edir, ödəniş etməyə tələsmirlər.

Amma hətta müqavilə qüvvəyə mindikdən sonra belə təminatlar 7 günlük gözləmə müddətindən sonra başlanır. Yəni müqavilə bağlansa da, ödəniş ediləndə qədər və ödəniş edildikdən sonrakı 7 günlük müddət ərzində baş vermiş hadisələr qarşılanmır.

**3. "4 ton məhsul alınan sahə 2 ton məhsulla bəyan edilir": Məhsuldarlığın düzgün göstərilməməsi**

Ən çox rast gəlinən hallardan biri fermerlərin bəyan zamanı əkin sahəsində gözlənilən məhsuldarlığı az göstərmələridir. Bəzi hallarda fermerlər 40 sentner məhsul gözlədikləri halda, bilərəkdən və ya məlumatsızlıqdan sahədən 30 sentner məhsul götürəcəklərini bəyan edirlər. Bu hal, hadisə baş verərkənfermerin real zərərdən daha az sığorta ödənişi almasına səbəb olur. Çünki hadisə baş verərkən ödəniş məbləği yalnız bəyan edilmiş məhsuldarlığa əsasən hesablanır.




**4. Əkilən toxumun sertifikatı olmalı və düzgün göstərilməlidir**

Əkilən bitkini toxum sertifikatının olması sığorta ödənişi zamanı vacib şərtlərdən və fermerlərin diqqət yetirməli məqamlardan biridir. Fermer həmin toxum sertifikatının bir nüsxəsini özündə saxlamalıdır.

Sertifikatın olmaması və ya əkilən bitki ilə uyğun gəlməməsi sığorta ödənişindən imtinaya səbəb ola bilər.

**5.Əkin növünün düzgün göstərilməsi**

Müqavilələrdə təminat verilən bitki növü də dəqiq göstərilməlidir. Bəzən fermerlər taxıl əkinlərində məhsulu göstərərkən arpa və ya buğda olmasına əhəmiyyət vermirlər, nəticədə toplanan məhsulla bəyan edilən məhsul növü arasında uyğunsuzluq Fondun sığorta ödənişini təsdiqləməyinə mane olur.

**6. Fermer üçün vacib rəqəmlər - 24 saat və 10 gün: Sığorta hadisəsi barədə vaxtında məlumat verilməsi**

Təsərrüfatda hadisə baş verdikdə Aqrar Sığorta Fondunun 1651 Çağrı mərkəzinə müraciəti və sığorta tələbi ödəniş üçün əsas şərtdir. Əkin sahələrində hadisə baş verdikdə Fonda 10 gün ərzində, heyvandarlıq təsərrüfatlarında isə 24 saat ərzində müraciət edilməlidir. Müraciətin vaxtında edilməməsi imtinaya səbəb ola bilər. Bundan başqa, bitkiçilik, məsələn, meyvə bağlarının sığortasında tez müraciətin tez qeydə alınması zərərin vaxtında və dəqiq hesablanmasına və ödənişin də düzgün təyin olunmasına səbəb olur.

**7. "Sığorta kalkulyatoruna diqqətlə baxın, orada fərqli hadisələrdən sığorta var"**

Aqrar sığorta əkin sahələrini çoxsaylı risklərdən qoruyur, buraya baza zərfindən başqa, doludan keyfiyyət itkisi, donvurma, leysan, bitki xəstəlikləri və sair aiddir.

Baza zərfi bu əkin sahəsi üzrə risklərin əsas hissəsini əhatə edir. Fermerlər bu müqavilənin hansı riskləri əhatə etdiyinə diqqət yetirməlidirlər. Əkinləri əlavə risklərdən də sığorta etmək üçün onlara lazım olan əlavə riskləri seçmək olar. Bunun üçün Aqrar Sığorta Fondunun rəsmi İnternet səhifəsindəki "Sığorta kalkulyatoru"na baxmaq kifayətdir.

Ödənişlər yalnız sığorta müqaviləsində olan hadisələrə görə edilir. Buna görə də fermerlər mütləq hansı sığorta zərfini aldıqlarını, bu sığortaya sığorta hadisələrini və zərər növlərini araşdırmalıdırlar.

**AQRAR SIĞORTA FONDU**

Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*



*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h:*
*33080019442400230124*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 1568*
*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*